**Kazus**

Sarayev.V tanınmış sahibkardir və əhali arasında "kriminal aləmlə" dostluğu, dəbdəbəli həyatı ilə diqqət mərkəzindədir.

Sarayev.V "dənizdə cənnət" adlı məşhur tikinti layihəsini aparan iki tikinti şirkətindən birinin sahibidir. Tikintinin sona çatdırılması üçün keçmiş nazirlərdən biri – A.Karamazovdan 2003-cü ildə külli miqdarda borc almışdır. Lakin müəyyən müddətdən sonra 2014-cü ilin yanvar ayında həmin borcu qaytarmaq istəsə də Karamazov ondan pulu geri götürməkdən imtina edərək əvəzində onu tikinti layihəsində olan payına şərikliyi tələb etmişdir. Bu əsasla onlar arasında bir neçə dəfə tikinti ərazisində mübahisə olmuşdur.

2004-cü ilin may ayının 15-də Karamazov həmin tikinti layihəsi həyata keçirilən əraziyə gəlmiş, sürücüsü ona avtomobilin qapısını açdıqdan sonra onlar hər ikisi qeydiyyat nişanı olmayan avtomobildən onlara açılmış atəşdən qətlə yetirilmişlər. Qətli törədənlər qaçıb gizlənmişlər.

Hay-küylü və ictimaiyyətin diqqətində olan bu qətl işi üzrə 2004-cü ilin may ayının 20-də Daxili İşlər Naziri mətbuata açıqlama verərək qətlin icraçısının yaxalandığını və sifarişçinin Sarayev olduğunu bəyan etdi. Bundan sonra Sarayev həbs edildi.

2005-ci ilin yanvar ayında Sarayev barəsindəki cinayət işinə bəraətverici əsaslarla, təqsiri sübuta yetirilmədiyi üçün xitam verildi və o azad edildi.

Bundan sonra 2005 ilin mart ayında Sarayev Daxili İşlər Nazirinin 20 mayda 2004-cü ildə keçirdiyi mətbuat konfransında onun barəsində dedikləri fikrə görə məruz qaldığı maddi və mənəvi ziyanın əvəzinin ödənilməsi üçün Baş Nazirə müraciət etdi və rədd cavabı aldı. Müraciətində çoxsaylı KİV məlumatlarına istinad etmişdir.

Sarayev hüquqlarının bərpası üçün 2005-ci ilin iyun ayında inzibati məhkəməyə müraciət etdi. İnzibati məhkəmələr isə 5 il çəkən prosessual hərəkətlərdən sonra 2010-cu ildə ərizənin mümkünsüz hesab edərək, bu işə baxmağa səlahiyyətləri olmadığını qərara almışlar.

Bundan sonra Sarayev 2010-cu ildə eyni iddia ilə ümumi məhkəməyə müraciət etmiş, 2016-cı ilin yanvar ayında son instansiya məhkəmə qərarı qəbul olunmuş və Sarayevin iddiası sübut olunmaması əsası ilə rədd edilmişdir.

*Hazırladı: Sima Yaqubova*